SəS.-2018.-29 iyun.- S.12

əs

www.sesqazeti.az

facebook Ses Media Holding



***Ölkədə iqtisadi inkişaf, yenidənqurma və abadlıq işlərinin görülməsi ölkənin daxili potensialı nəticəsində Azərbaycanda turizmin sürətli inkişafına gətirib çıxarıb. Yeni mehmanxana və hotellərin inşası və təmiri dövlət siyasətinin həyata keçirilməsində əsaslı rola malikdir. Belə ki, məlum olduğu kimi, paytaxtımızda dünya standartlarına cavab verən 5 beşulduzlu mehmanxanlar açılıb ki, bu da dünyada analoqu olmayan bir hadisədir. Bununla yanaşı, yeni dördulduzlu və üçulduzlu hotellər də inşa olunub. Azərbaycanın rayonlarında da bu sahədə işlər görülməkdədir. Artıq ölkəmizin bölgələrində hotelçiliklə bağlı bir sıra işlər görülmüşdür ki, bu da ölkə turizminin durmadan inkişafını reallaşdıran amillərdir.***

# Azərbaycana turist axını güclənir

Müasirlik turizm bazarının artmasına da təsirini göstərir. Təkcə bu ilin yanvar-may ayları ərzində Azərbaycana dünyanın 184 ölkəsindən 1 milyon 55,6 min və ya ötən ilin müvafiq dövrü ilə müqayisədə 10,1 faiz çox əcnəbi və vətəndaşlığı olmayan şəxsin gəlməsi fikirlərimizi təsdiqləyir. Gələnlərin 29,3 faizi Rusiya Federasiyası, 22 faizi Gürcüstan, 12,1 faizi İran, 11,3 faizi Türkiyə, 4 faizi Birləşmiş Ərəb Əmirlikləri, 2 faizi Ukrayna, 1,8 faizi İraq, 17,4 faizi digər ölkələrin vətəndaşları, 0,1 faizi isə vətəndaşlığı olmayan şəxslərdir. Statistik məlumatlara istinadən, cari ilin yanvar-may aylarında Körfəz ölkələrindən (İran istisna olunmaqla) gələnlərin sayında daha çox artım müşahidə edilib. Ötən ilin yanvar-may ayları ilə müqayisədə ölkəmizə gələn Küveyt vətəndaşlarının sayı 6 dəfə, Bəhreyn vətəndaşlarının sayı 2,4 dəfə, Qətər və Səudiyyə Ərəbistanı vətəndaşlarının sayı 1,9 dəfə, İraq vətəndaşlarının sayı 1,5 dəfə, Oman vətəndaşlarının sayı 32,4 faiz, Birləşmiş Ərəb Əmirlikləri vətəndaşlarının sayı 6,8 faiz artıb. Beş ayda Avropa İttifaqına üzv ölkələrdən gələnlərin sayı 12,6 faiz artaraq, 42,6 min nəfər, MDB ölkələrindən gələnlərin sayı 7,4 faiz artaraq, 367,4 min nəfər olub. Ölkəmizə gələn əcnəbilər və vətəndaşlığı olmayan şəxslərin 59,9 faizi dəmir yolu və avtomobil, 39,2 faizi hava, 0,9 faizi isə su nəqliyyatından istifadə edib.

Bu gün ölkəmizdə turizmin inkişafı sahəsində əldə olunan nəticələr bu sahəyə ayrılan diqqətin nəticəsidir. Elə bir neçə gün bundan əvvəl Yeni Omanla Azərbaycan arasında birbaşa aviareysin açılması da turislərin ölkəmizə səfərinə şərait yaradacaq. Məsqətdən Bakıya birbaşa reysin açılması iki ölkə arasında turist axınını genişləndirəcək. Hazırda iki ölkənin paytaxtı arasında həftədə 3 aviareys həyata keçirilir. Lakin yaxın gələcək üçün daha çox reysin, xüsusən, bayram günlərində əlavə təyyarələrin ayrılmasına ümid bəslənilir. Bütün görülən işlər yaxın gələcəkdə Azərbaycana turist axınının daha da güclənəcəyindən xəbər verir.

***ZÜMRÜD BAYRAMOVA***